## KAF nə üçün sosial bazar iqtisadiyyatının konsepsiyası ilə məşğul olur?

Sosial bazar iqtisadiyyatı iqtisadiyyat nəzəriyyəsində alman xüsusi yolu, iqtisadi siyasətdə isə kommunizm və liberalizm arasındakı üçüncü yol hesab edilir. O, Frayburq məktəbinin bir qrup iqtisadçıları və sosioloqları, ilahiyyatçıları və hüquqşünasları tərəfindən 30-cu illərdə Frayburq Universitetində yaradılmışdır və sonralar ikinci cahan savaşından sonra iqtisadiyyat naziri olmuş Ludviq Erhardın rəhbərliyi altında XDİ vasitəsilə siyasi müzakirələrə gətirilib çıxarılmış, o cümlədən Almaniyada iqtisadi düzən kimi qəbul edilmişdir. Konrad Adenauer Fondu özünü Konrad Adenauerin və Almaniyadakı xristian demokratiyasının təməl dəyərlərinin mənəvi irsinin davamçısı hesab edir.

Beynəlxalq əməkdaşlıqda siyasi düzən dialoqu sahəsində sosial bazar iqtisadiyyatı mövzusu ilə ətraflı məşğul olmaq üçün çox fərqli və bir-neçə tərəfdaş ölkələrə yararlı olan önəmli səbəblərin sırası mövcuddur:

- Sosial bazar iqtisadiyyatı azadlığın və sosial cavabdehliyin prinsiplərini cəmiyyətdə bir-biri ilə bağlayan uğurlu cəhd hesab edilir. Cəmiyyətin sosial birliyi olan və bazar iqtisadiyyatlı sistemlərdə həmişə təriflənən sosial ədalətə nail olma, bu gün qloballaşma vasitəsilə inkişafda olan ölkələrdə daha güclü şəkildə iqtisadi və sosial-siyasi müzakirələrin fokusunda olur.

- Sosial bazar iqtisadiyyatı demokratiyanın və hüquqi dövlətçiliyin yapışıq əkizi hesab edilir. Sosial bazar iqtisadiyyatına dair düzən siyasəti dialoqu bir tərəfdən hüquqi dövlətçiliyə və demokratiyaya dair dialoqda açar ola bilər, amma o təqdirdə ki, bu mövzulara ideoloji səbəblərdən birbaşa giriş qadağan edilsin. Bundan irəli gələrək, sosial bazar iqtisadiyyatı barədə müzakirə meta mərhələdə düzən siyasəti düşüncəsinin zəruriliyini qəbul etməyə xidmət edə bilər.

- Sosial bazar iqtisadiyyatı öz yararlılığını möhkəm iqtisadi inkişaf çərçivəsi olaraq sübut etmişdir. O, dünyanın az inkişaf etmiş regionlarında yoxsulluğa qaşı siyasət üçün düzən siyasətli təsisatlar təklif edir.

## Sosial bazar iqtisadiyyatı dəbdən düşmüş və köhnə konsepsiyadır?

Bu konsepsiyanın tətbiqindən 60 il sonra da iqtisadçı alimlər və iqtisadçı siyasətçilər sosial bazar iqtisadiyyatının təməl düşüncələri ətrafında müzakirələr aparırlar.  Bu əhəmiyyətlidir, çünki insan dünyanın, cəmiyyətin və iqtisadiyyatın nəzər nöqtəsində olduğuna görə cəmiyyətimizin əsaslarında, dövlətin rolunun anlayışında və əmin edilməsində texniki tərəqqi və qloballaşma vasitələri ilə heç nə dəyişməmişdir. Elə bunlar sosial bazar iqtisadiyyatı konsepsiyasının əsaslandığı təməl düşüncələrdir.

## Sosial bazar iqtisadiyyatının konsepsiyası haradan qaynaqlanır?

Biz sosial bazar iqtisadiyyatı anlayışı dedikdə, Almaniya və Avropadakı tarixi təcrübədən sonra 20-ci əsrin ortalarında Almaniyada inkişaf etdirilərək siyasətə gətirilmiş iqtisadiyyat və cəmiyyət düzənini izah edirik. Artıq otuzuncu illərin ortalarında, yəni nasional sosialistlərin Almaniyada hakimiyyəti ələ aldıqları dövrdə Frayburq universitetində nasional sosializmdən sonra Almaniyanın azad iqtisadiyyat və cəmiyyət düzəninin necə olacağı ilə bağlı suallarla əlləşən hüquq, iqtisadiyyat və sosial elmlər üzrə mütəxəssislərin və ilahiyyatçıların qrupu formalaşdı.

İqtisadi sabitliyin təhlükəsizliyi ilə yanaşı – hiper inflyasiya və yüksək işsizlik nasional sosialistlərin iqtidara gəlişinə gətirib çıxaran siyasi sistemə qarşı narazılığı gücləndirdi – belə bir düzən mövcudluğunu və möhkəm mövqeyini Almaniyada 1920 – 1930-cu illərdə iqtisadi sabitliyin və bölüşdürmə ədalətinin mənfi cəhəti kimi sübut etmiş kartellərin əngəllənməsinə xidmət etməli idi. Buna görə də Frayburq məktəbi bir tərəfdən Rusiyadakı sosial inkişafa və digər tərəfdən anqlosaksonluğa bağlı məkandakı liberal inkişafa alternativ tapmaq öhdəliyi qarşısında dururdular.

## Sosial bazar iqtisadiyyatının əsas ideyası nədir?

Sosial bazar iqtisadiyyatının əsas ideyası bir tərəfdən liberalizm düzəninin siyasi və iqtisadi kombinasiyası, digər tərəfdən də, bu düzənin katolik sosial elmi əhatə edən konsepsiyadır. Liberalizm düzəni şəxsi mülkiyyətin və rəqabətin iqtisadi liberal prinsipləri əsasında qurur, lakin liberalizm olaraq, onun ən ümdə vəzifəsi düzən çərçivəsi təyin etmək, yaratmaq və onu bazar hakimiyyəti ehtimalına qarşı qüvvədə saxlamaq olan güclü dövlət tələb etməkdir.

Liberalizm düzəninin təməli də digər düzənlərin düşüncəsi kimidir: İqtisadi düzən cəmiyyət düzəninin bir parçasıdır və o, üstün tutulmuş ictimai dəyərlər və məqsədlərə uyğun gəlməlidir. Bu dəyərlər və məqsədlər humanizm və xristianlıqdan qaynaqlanır. Sosial bazar iqtisadiyyatının öhdəsinə götürdüyü prinsiplər, həm də digər ictimai düzənlərdə də tanınır. Burada söhbət aşağıdakı prinsiplərdən gedir:

- **Yekdillik** prinsipi: İnsan özü öz qayğısına qalmağı bacardığı zaman dövlət özünü geri çəkməlidir;

- **Həmrəylik** prinsipi: İnsan özü öz qayğısına qalmağı bacarmadığı zaman cəmiyyət kömək etməlidir;

- **Fərd** prinsipi: İnsan cəmiyyətin mərkəz nöqtəsindədir. İnsan kollektivə xidmət etməməlidir, əksinə kollektivlər fərdin ehtiyaclarına xidmət etmək üçün bir vasitədir.

Liberal iqtisadiyyat düzəni demokratiyanın təməl düşüncələri ilə ayrılmaz dərəcədə bağlıdır. Bazar iqtisadiyyatı demokratik təməl prinsiplərin bazara daşınmasıdır, bazar özü isə təklifin keyfiyyəti haqda alıcının gündəlik razılığından başqa heç nə deyil. Sosial bazar iqtisadiyyatı qeyri-demokratik cəmiyyətdə liberalizm düzəninə ( uzaq başı uzun müddətli) heç də minnətdar deyil.

## Sosial bazar iqtisadiyyatında dövlətin düşüncəsi necə olur?

Sosial bazar iqtisadiyyatı – liberalizmdən və neoliberalizmin bir çox qoruyucundan fərqli olaraq – dövlətin rolunu gecə küçədə işıqları yandırmaq kimi vəzifəsi olan gecə bələdçisi kimi görmür. O, bazar üçün düzən çərçivəsini təyin edən, rəqabət yaradan və bazarın təzyiqinə qarşı daim hazır olan güclü dövlət qurur.

O, dövlətdən gözləyir ki, dövlət bazarın ictimaiyyət tərəfindən arzu olunan nəticəyə gətirilmədiyi yerlərdə, bazara təzyiq etsin və bu nəticələri düzəltsin. Hər şeydən öncə dövlət düzən siyasəti və proses siyasəti arasındakı fərqdə mühüm əhəmiyyət kəsb edən həqiqi təməl prinsipləri rəhbər tutmalıdır:

- Düzən siyasəti kimi liberalizm müəssisələrin və istehlakçıların iqtisadi ticarəti üçün hüquqi və qurumsal çərçivə şərtlərinin yaradılmasını təmin edir. O uzun müddətli olaraq istiqamətlənib.

- Proses siyasəti birbaşa və bilavasitə bazar məsələlərinə qarışır və qısa müddətə əldə olunan nəticələrə istiqamətlənir.

## Sosial bazar iqtisadiyyatında iqtisadi siyasətin əsas prinsipləri hansılardır?

Sosial bazar iqtisadiyyatında iqtisadi siyasətin əsas prinsipləri aşağıdakılardır:

1. İqtisadi siyasətin vəzifəsi iqtisadi proses üçün uzun müddətli çərçivə yaratmaqdır ki, bazar mexanizmi ictimai optimal nəticələrə gəlib çıxsın.

2. Əgər düzən siyasəti heç bir uğur vəd etmirsə, bu zaman iqtisadi siyasətin vəzifəsi neytral olaraq və ayrı seçkilik etmədən iqtisadi prosesə müdaxilə etməkdir. Proses siyasəti bir tərəfdən yekdil xarakterə malikdir, digər tərəfdən isə dövlət ticarətinə aktiv struktur siyasətini yaxud da fərdi müəssisələrin dəstəyini qadağan edən dar sərhədlər qoyur.

3. İqtisadiyyat siyasətinin vəzifəsi sistemə uyğun biçimdə bazarlara təsir etməkdir, bu isə sosial bazar iqtisadiyyatının iş mexanizmlərinə təkan vermək deməkdir. Lakin sosial bazar iqtisadiyyatının iş mexanizmləri bazar iqtisadiyyatı düzənindən olan qiymətlərdir. Qiymət mexanizminə müdaxilə etmək isə qəti qadağandır. Bu vergilərin qalxmasını yox, amma ən az və ən yüksək qiymət müəyyənləşdirilməsini istisna edir.

Sosial bazar iqtisadiyyatında siyasət heç də həmişə cəhdə qarşı çıxa bilmir, ehtimal olunan çevik siyasi uğurların yükləməsinə dair əsas prinsipləri pozmur və subvensiyaların yaxud da digər qısa müddətli müdaxilələrin köməyi ilə bazarda yardıma ehtiyacı olan iqtisadi aktora "kömək etmir". Almaniyada keçici pis iqtisadi inkişafın səbəblərinə dair suala bu prinsiplər əsasında cavab verilməlidir.

## Sosial bazar iqtisadiyyatının tərkib hissələri

Liberalizm düzəninin ideyasına görə iqtisadiyyat düzəni qurucu faktorlardan və tənzimləyici prinsiplərdən ibarətdir. Qurucu faktorlar müvafiq hüquqi qaydaya uyğun olaraq, yaradıla bilən uzun müddətli çərçivələri formalaşdırdığı zaman tənzimləyici prinsiplər də qurucu düzənin vəziyyətini dəyişmək və ictimai optimal nəticələri əldə etmək üçün daim labüd olan müdaxilələrin zərurətini təsvir edir. Burada yenə də fabrikdə istehsal olunan (qurucu faktorlar) motorla müqayisə aparılır, lakin yağlayıcı maddələrin (tənzimləyici prinsiplər) daim qorunması və tətbiq edilməsində vəziyyət töhfə verə biləcək dərəcədədir.

## Sosial bazar iqtisadiyyatının qurucu faktorları

Frayburq məktəbi sosial bazar iqtisadiyyatının qurucu faktorları kimi aşağıdakıları müəyyən edir:

- **Bazarın qiymət mexanizmi**: Rəqabət düzəninin ilkin prinsipi rəqabət qiymətlərini müəyyən etməkdir, çünki təkcə bazar iqtisadiyyatı sistemi rəqabətdəki azad qiymət qoyuluşunda idarə etmə funksiyasını həyata keçirir.

- **Valyuta siyasətinin əsas forması**: O, qiymət səviyyəsinin sabitliyini təmin etməlidir. Burada xüsusən 20-ci əsrin əvvəlində almanların iki güclü inflyasiya təcrübəsi pislənir. İnflyasiya zamanı qiymətlər öz informasiya funksiyalarını itirirlər. Rasional iqtisadi hesablamalar bu əsaslardan məhrum edilib, bazar qiymətinin idarə etmə mexanizmi öz təsirini itirir.

- **Açıq bazar prinsipi**: O, bazara sərbəst çıxışın olmasına zəmanət verməlidir. Bazara sərbəst çıxış olduqda inhisarçılıq mövcud ola və kartellərin təsiri arta bilməz. Açıq bazarlar hakim qüvvənin və bununla bağlı gəlirlərin meydana gəlməsinə əngəl olur.

- **Şəxsi mülkiyyət dövlət mülkiyyətindən üstün olmalıdır**: Mülkiyyətə dair fərdi qərar hüququnun qarantiyası iş stimulu yaradır, bu isə mərkəzdənkənar planlaşdırma və planların reallaşdırılması üçün zəruri ilkin şərtdir və fərdlərin müstəqilliyinə, o cümlədən təhlükəsizliyinə zəmanət verir.

- **Müqavilə azadlığı prinsipi**: İqtisadi subyektlər həmişə kiminləsə və hansısa məzmunda müqavilələr bağlamaqda sərbəstdir, lakin o vaxta kimi ki, bu müqavilələr qeyd edilən hüquqları pozmur yaxud da rəqabəti məhdudlaşdırmır. Bu müqavilə azadlığı ilkin şərtdir ki, rəqabətdə ən təsirli təklif verənlər də nə isə etməyə bacarsınlar.

- **Məsuliyyət prinsipi**: Sosial bazar müqaviləsində cavabdehlik o kəslərin əlində olmalıdır ki, onlar mülkiyyətə dair qərar hüququna sahibdirlər və qərarlar qəbul edirlər.

- **İqtisadi siyasətin davamlılığı:** O, sonuncu qurucu prinsip kimi bunun üçün məsuliyyət daşımalıdır ki, büdcələr və müəssisələr öz qərarları üçün ciddi təhlükəsizliyə malik olsun və heç də uzun müddətli olmayan sərmayə və istehlak ayrımları siyasətdəki bugünkü istiqamət dəyişikliyi vasitəsilə çətinləşdirilməsin.

## Sosial bazar iqtisadiyyatının tənzimləyici prinsipləri

Qurucu faktorların köməyi ilə yaradılmış bazar iqtisadiyyatı düzəni iqtisadiyyat subyektinin təsiredici işi üçün çərçivə təklif edir. O, da artıq sosial xarakterə malikdir, çünki o, zəiflərin bazar gücündən sui - istifadə edilməsinə əngəl olur və bir çox insana bazarda lazımi gəlir əldə etmək üçün imkan verir.

Lakin o, digər müdaxilələrdən, hər şeydən öncə sosial dövlət prinsipinin iddiasından hələ səlahiyyətli deyil, bu – alman anayasasında (Maddə 20, I  və maddə 28, I) vurğulanıb – tələb edir ki, cəmiyyət o insanlar üçün də qayğı göstərməlidir ki, onlar – hər hansı səbəbdən – öz yaşam ehtiyaclarını qarşılamaq durumunda deyil. Buna görə də sosial bazar iqtisadiyyatında digər müdaxilələrin tənzimləyici prinsiplər formasında olması zəruridir. Bura aiddir:

- **İnhisara qarşı dövlət nəzarəti:** Məsələn, sosial bazar iqtisadiyyatı ABŞ-ın rəqabət idealını inhisarçıların məhvi kimi çox da anlamlı görmür. Bunun əvəzində inhisarçılar ( hər şeydən əvvəl burada əsl inhisardan söhbət gedir ) dövlət nəzarətinə götürülür və hakim vəzifədən sui –istifadəyə əngəl olunur.

- **Əsas gəlirin paylaşdırılmasına düzəliş** üçün dövlətin gəlir siyasəti sosial siyasi baxış prizmasından lüzumludur. Sosial bazar iqtisadiyyatında buraya proqressiv gəlir vergisi, o cümlədən xəstəlik, işsizlik yaxud yaşlılıq kimi hallar vasitəsilə fərdi gəlir kəsirlərini sığortalayan məvacibə əlavə xidmətlər sistemi də daxildir.

- **Kənar effektlərin mənimsənilməsi** üçün fərdi iqtisadi hesablamalar mənimsənilmiş tədbirlər vasitəsilə ictimai olaraq əmələ gələn xərcləri artırmalıdır. Bu tənzimləyici alət xüsusən də təbiət resurslarından istifadə probleminə yönəlib, çünki təbii ehtiyatlar üçün qanunda heç bir mülkiyyət hüququ verilmir.

- **Əmək bazarında anomal təklifin edilməsi** hər şeydən əvvəl 19-cu əsrdə əlavə xərclərin daxil edilməsi prosesinin başlanğıcından tanınır (Aşağı məvaciblər zamanı işə götürülənlər pis durumlarına görə təminedici gəlirin əldə edilməsi üçün daha çox işləməyi təklif edirdilər; lakin bununla belə maaşlar daha da enib.) və maaşların enməsinə qarşı çıxmaq üçün iqtisadi – siyasi tədbirlər görülməlidir.

  Burada sosial bazar iqtisadiyyatındakı iqtisadi siyasət qanunən təmin edilmiş tarif avtonomiyası ( Maddə 9, III ) yaratmış və əmək bazarında işə götürülənlərin iş verəni təmsil edən ilə maaş və iş şərtləri haqqında danışıqlar aparan kartellər kimi peşələri bağlamağa açıqca icazə vermişdir. Əmək bazarında bu gün də anomal təkliflər edildikdə, tarif avtonomiyası bunu qoruyur, çünki o, maaş siyasətinə dövlətin təsirini əngəlləyir.

## Sosial bazar iqtisadiyyatında sosial məsələlər nədir?

Sosial təminat siyasəti sosial bazar iqtisadiyyatının konsepsiyasının özəyidir. Rəqabətcil iqtisadiyyat bazar hakimiyyətindən olan gəlirlərin əmələ gəlməsini məhdudlaşdırmaq istəyir və bununla o, iş sistemində ədaləti formalaşdırır. Bazar mexanizmini qane edəcək qiymət yalnız azlığa zidd olduqda, lakin təyin edilmiş sosial ədalətə zəmanət vermədikdə etik cəhətdən neytral olur.

Sosial bazar iqtisadiyyatındakı ədalət idealı anayasada sosial prinsiplə yanaşı vurğulanmış təməl ədalətə ( bərabər şanslılıq ) riayət edir. Hər ikisi də sosial – siyasi ehtiyatlılıq baxımından yuxarıda qeyd olunmuş iqtisadiyyat siyasətinin prinsiplərini nəzərə almalı olan

bazar iqtisadiyyatına müdaxilələr etməyi tələb edir. Bu müdaxilələrin ən vacibləri aşağıdakılardır:

- Xəstəliyə işsizliyə, habelə yaşlılıq təqaüdünün və yaşlı olduqda qulluq risklərinin təminatına **qarşı sosial təminatın işlək sistemi;**

- Ehtiyacı olan vətəndaş sosial sığortaya pul ödəyibsə, **aşağı səviyyəli həyat tərzinin** dövlət tərəfindən sosial yardımla (bugünkü gündə işsizlərə ödənən pul) **təmin edilməsi;** Bununla yanaşı sosial bazar iqtisadiyyatında əmək bazarı sisteminə xüsusi diqqət verilir, çünki geniş əhali kütləsi üçün maaş yeganə, uzaq başı ən vacib gəlir mənbəyidir.

- **Tarif avtonomiyası** həmkarlar ittifaqına öz üzvləri üçün işverən birliklər yaxud da tək-tük müəssisələrlə tarif müqavilələri bağlamaq hüququ verir və bu ekstremal hallarda tətil tətbiq edir. Sosial bazar iqtisadiyyatında əmək bazarı faktiki olaraq, yeganə bazardır ki, orada kartellərə qarşı nəinki müstəsna dözüm nümayiş etdirilir, hətta bu arzu olunur.

- İşə götürülənlər özünün seçmiş olduğu işəgötürülən təmsilçisi vasitəsilə müəssisədə istifadə etmiş olduğu və işəgötürülənlər üçün əhəmiyyətli qərarlar ( işdən azad etmə və yeniləşdirmə proqramları ) verən **birgə təyin etmə hüququna** sahibdirlər.

- Müqavilə azadlığı əmək hüququnun bir hissəsi olaraq işəgötürənin qorunması üçün aradan qaldırıldı. Əmək müqaviləsi hüququ məcburi olaraq yazılır və **işdən azad etmə hüququnun qorunması** iş yerinin itirilməsini *Ultima Ratio* kimi saxlayır və işdən azad etmə zamanı müəssisədə bütün mümkün alternativlərdən istifadə etdirir.

Sosial təminat siyasətinin və əmək bazarının tənzimlənməsinin başlıca ehtiyacı sosial bazar iqtisadiyyatının əsas prinsiplərində göstərilib, lakın heç də tam izahı ilə yox. Ötən 60 ildə o, sosial təminat sistemlərində həmişə uzlaşma olmuşdur. Səksəninci illərdə əhəmiyyətli şəkildə həyat şəraitinin artması ilə daha da yaxşılaşdırmadan söhbət getdiyi ərəfədə idrak, artan qloballaşma vasitəsilə siyasətə keçidi saxladı ki, sosial iqtisadiyyat sahəsində həqiqi birləşdirmə gərəkli olsun. Bununla belə sosial bazar iqtisadiyyatı sosial siyasət üçün heç də möhkəm sistem deyil və daha çox hər bir cəmiyyət və hər bir nəsil sosial təminatda arzu olunan və müəyyən ölçüyə dair yeni uzlaşma tapmalıdır.

## Almaniyada sosial bazar iqtisadiyyatının uğurları

Alman iqtisadiyyatı sosial bazar iqtisadiyyatı sayəsində bazarın funksiyasına etimad göstərərək, sosial tarazlıq ilə azadlıq prinsipini birləşdirən işlək düzən çərçivəsinə malikdir. Bu düzən çərçivəsi kütləvi olaraq beynəlxalq aləmdə "iqtisadiyyat möcüzəsi" kimi tanınan və nasional sosialistlər, o cümlədən müharibə vasitəsilə xalq təsərrüfatı məhv edilmiş Almaniyanın yenidən dirçəlməsinə töhfə verib.

Sosial bazar iqtisadiyyatının düzən konsepsiyası 1945-ci illərdən sonra sabitlik siyasətinin, iqtisadi və sosial siyasətin uğuru üçün bir əsas idi. Uğurlar təkcə səksəninci illərdəki yüksək iqtisadi inkişafa yox, həm də alman xalq təsərrüfatının yüksək rəqabət qabiliyyəti sayəsində məhsulların "idxalı üzrə çempion" olmasına əsaslanır. Həmçinin əmək bazarının göstəriciləri müsbət şəkildə inkişaf etmişdir. 1971-ci ildə Almaniyanın iqtisadiyyat naziri əvvəlki əmək bazarının vəziyyətini "normal qış havalarında işsizlik kvotasını 0,8 faiz" olaraq tam məşğulluq kimi təyin etdi. Bundan başqa Almaniya özünü beynəlxalq statistikalarda bütün inkişaf etmiş iqtisadiyyatlara nisbətən yüksək gəlir verməsi ( dövlətin qoyduğu ölçü təxminən 0,3 % təşkil edir ) və ən az tətil günləri ilə önə keçmişdir.

## Almaniyadakı iqtisadi möcüzə ümumiyyətlə sosial bazar iqtisadiyyatı ilə izah edilir?

Almaniyanın ikinci cahan savaşından sonrakı sürətli inkişafı iqtisadi möcüzə kimi xarakterizə edilir. Şübhəsiz ki, əllinci illər bütün Avropada inkişaf sürətinin yüksək olduğu faza idi, bu zaman soruşmaq yerinə düşər ki, sosial bazar iqtisadiyyatının nə qədər hissəsi Almaniyanın iqtisadi möcüzəsində yer alıb. Lakin digər tərəfdən Almaniya çox ağır başlanğıc şərtlər altında tam çökmüş iqtisadiyyat və federal respublikanı inteqrə etməli olan bir çox satışlarla bütün digər Avropa ölkələrini iqtisadi cəhətdən ötdü və 20 il ərzində Avropada iqtisadi baxımdan aparıcı rolu öz üzərinə götürdü. Bu Avropada yüksək inkişaf dövrü və Marşal planı ilə izah edilə bilməz, əksinə bu Almaniyada iqtisadi inkişaf üçün olan xüsusi çərçivə şərtləri ilə izah edilir. Bu çərçivə şərtləri isə sosial bazar iqtisadiyyatının konsepsiyasının siyasətə sızmasından başqa heç nə deyil.

## Almaniyadakı iqtisadi və iqtisadi – siyasi durumu nəzərə alaraq sosial bazar iqtisadiyyatını ümumiyyətlə xaricdə " el içinə çıxarmaq " olarmı?

Ümumiyyətlə, iqtisadi sistem olaraq sosial bazar iqtisadiyyatının nəzəri konsepsiyası və Almaniya Federativ Respublikasının iqtisadi düzəni arasında fərq qoyulmalıdır. KAF-ın inkişaf siyasətli əməkdaşlığının məqsədi alman iqtisadi düzənini və iqtisadi siyasətini başqa ölkələrə daşımaq yaxud daşımağı tövsiyə etmək ola bilməz. Lakin iqtisadi sistem kimi sosial bazar iqtisadiyyatının nəzəri konsepsiyası çərçivə olaraq, düzən siyasəti barədə dialoqa xidmət edə bilər, çünki o, bizim də əmin olduğumuz kimi, iqtisadi təsirliyi və sosial tarazlığı bir-biri ilə birləşdirir.

## Almaniyada hazırkı vəziyyət necədir və onu sosial bazar iqtisadiyyatı ilə nə qədər izah etmək olar?

Son 15 ildə Almaniyanın iqtisadiyyatı haqqında xəbərlər artıq məhdud dərəcədə pozitivdir, bu isə naməlum bir obraz meydana çıxarır. İllərdən bəri bütün beynəlxalq rankinqlər bildirir ki, Almaniya rəqabət qabiliyyətini itirir və siyasət hər şeydən öncə sosial siyasət sahəsində mühüm islahatlar aparmaq durumunda deyil. İşsizlik yüksək ( on faiz ), inkişaf surəti isə aşağıdır ( eyni faiz ).

Digər tərəfdən isə Almaniya yenə də ixrac sahəsində ən öncül ölkədir və dünyanın ən yüksək həyat şəraiti olan ölkələrindən sayılır. Aktual iqtisadi inkişaf yenə də müsbət siqnallar verir, XMM (BNP) inkişaf sürəti ol ildən bu yana ilk dəfə yenə də nə qalxıb, nə də düşüb, işsizlik kvotası yeddi ildən bəri olduğu kimi artıq enmir və 2006-cı ildə Almaniya ötən illərdə XMM (BNP) üç faiz çatışmayan yenidən borclanmaya dair Maaştix meyarlarına cavab verdi.

Ümumilikdə isə müəyyən edildi ki, "alman xəstəliyinə" olan şikayətlər yüksək həddə çatıb və dünyanın xalq təsərrüfatının böyük hissəsi alman problemləri olsaydı çox bəxtəvər olardı. Bundan sonra inkar edilməzdi ki, iqtisadiyyat və siyasət böyük problemləri həll etməlidir. Lakin bu problemlər sosial bazar iqtisadiyyatı konsepsiyası ilə çox az əlaqədardır. Bazar iqtisadiyyatlı idarə mexanizminin imtina edildiyi yerdə - məsələn əmək bazarında – müəyyən edilə bilər ki, siyasət sosial bazar iqtisadiyyatının iş mexanizmlərini yuxarıda təsvir edilmiş prinsiplərə zidd çıxaraq ləğv edir. Sosial bazar iqtisadiyyatının əsas

konsepsiyası öz prinsiplərinin əksinə əvvəlki gücləri yenidən bərpa etməkdən ötrü Almaniyadakı iqtisadi siyasətə istiqamətlənə bilən və istiqamətlənməli olan kompas təklif edir. Ətraflı olaraq, iqtisadi problemlərə aşağıdakılar aid edilir:

1. **Demoqrafik dəyişiklik pensiya və xəstəlik sığortası sistemlərini yükləyir**

Tibbi texniki tərəqqinin həyat ehtiyaclarına yüksək töhfə verdiyi ərəfədə digər bütün qərb sənaye ölkələrindəki kimi cəmiyyətimizin fərdiləşməsi aşağı doğuşlara gətirib çıxarır. Nəticədə isə işləyənlərlə müqayisədə təqaüd alanların arasında dramatik dəyişiklik yaranır və beləliklə, 50-ci illərdə tətbiq edilmiş pensiya sistemi təzyiq altına düşür. İlk uyğunlaşdırma addımları qəbul olundu, üstəlik kapitalı əhatə edən əlavə sığortalar tətbiq edildi.

2. **Dünyada maaşa əlavə gəlirlər çox yüksəkdir və onlar istehsal faktorunun işinə cərimə vergisi kimi təsir edir**

Almaniyadakı yenidən qurma fazasında siyasət sosial təminatın xərclərinin bərabər maliyyəsi üçün yarısı işəgötürülənin netto maaşından və digər yarısı işəgötürənin brutto maaşına artım olaraq ödənməli olan gəlir xərclərinə artım etməyə qərar verdi. Sosial təminat sisteminin artan qiymətləri ilə yanaşı bu maaşa əlavə xərclər də artdı və tədricən maaşa əlavələr 40 faizdən yüksək oldu.

Bu Almaniyada işçi qüvvəsini bahalaşdırırdı və alman işəgötürülənlərin rəqabət qabiliyyətini aşağı salırdı. Alman müəssisələri son dərəcə rəqabət qabiliyyətlidir, lakın Almaniyadakı iş yerləri yox. Qiymətlərin aşağı salınması tədbirləri buna görə də sosial sığorta sistemi sahəsində sosial sığorta sisteminin daha güclü vergi maliyyəsi kimi nəzərə alınır. Hər ikisi də mövcuddur, burada siyasət istehsal faktorunun işini beynəlxalq səviyyədə yenidən rəqabətcil etməkdən ötrü daha çox əziyyət çəkməlidir.

3. **Almanların almanlarla yenidən birləşməsinin xərcləri dövlət büdcəsini və sosial təminat sistemini yükləyir**

Şərqi Almaniyada sosial rejimin devrilməsi və 1990-cı ildə hər iki alman dövlətinin dərhal yenidən birləşməsi ilə Almaniya Federativ Respublikasının iqtisadiyyat və sosial sistemi yeni federal torpaqlara da tətbiq edildi. Bu iqtisadi-nəzəri baxımdan bəlkə anlamlı deyildi,

çünki tədricən uyğunlaşma prosesi əvəzinə iqtisadi nəzəriyyəni kəskin şok olaraq xarakterizə edir. Lakin bu daxili siyasi mümkün olan yeganə həll yolu idi, çünki şərqdən qərbə olan nəzarətsiz və hər şeydən öncə Şərqi Almaniyanın inkişaf şanslarını daha da zəiflədən miqrasiyaya əngəl olunurdu.

Bura kimi bu 1.500 milyarddan çox Avro birbaşa maliyyə köməyi, sosial köçürmələr və maaşa əlavələr kimi yeni federal torpaqlara axıdılıb. Lakin bu vasitələr ikinci cahan savaşından sonra Federal Respublikanın yenidən dirçəlməsi üçün sərmayə proqramlarında tutarlı olaraq bazar iqtisadiyyatının meyarlarına əsasən həyata keçirilmirdi, əksinə istehsalın böyük bir hissəsinə axırdı.

Bununla onlar artan təsirlərin istehsal kapasitetinə sahib olmadılar. Buna baxmayaraq bugünkü gündə yeni federal torpaqlar Avropada ən modern telekommunikasiya və nəqliyyat infrastrukturuna malikdirlər və yeni federal torpaqlarda adam başına düşən gəlir Orta və Şərqi Avropadakı hər hansı bir transformasiya ölkəsindəkindən daha yüksəkdir. Əgər şüşə yarım doludursa yaxud yarım boşdursa, onda şüşə 2 cür görünə bilər.

## 4. Almaniya Buntestaq və Bundesratın səlahiyyətləri ilə üst-üstə düşən islahatlar keçirməyi qarşısına qoyur

Alman iqtisadiyyatını yüngülləşdirəcək və onu yenidən rəqabətcil edə biləcək islahatlar planının böyük hissəsi federal torpaqları təmsil edən, parlamentin hər iki palatasının, Bundestaq və Bundesratın birgə səlahiyyət sahəsindədir. Bu ümumi səlahiyyət alman anayasasında hüququa dair hakim fikrə əsasən verilir və o, idarəedən çoxluğun hakimliyini məhdudlaşdırmalıdır.

Hər şeydən öncə bu birgə səlahiyyət müstəsnalıqdan qayda halına keçmişdir. Burada federalizmin islahatı çox zəruridir, çünki Federal Respublikanın tarixi göstərir ki, federal torpaqların nümayəndələri məqsədə yönlü partiya siyasətindən irəli gələrək çıxış etmək əvəzinə heç də həmişə cəhdə qarşı çıxmırlar və hər iki palata özlərini mühasirə etmir. Bu islahatlar böyük koalisiyalar tərəfindən ciddi qəbul olunur.

## Qloballaşma dövründə sosial bazar iqtisadiyyatına istiqamətlənməyin bir mənası varmı? Dünyadakı bütün rəqabətlərdə bazara sərbəst oyun verən və ətraf mühit, eləcə də sosial siyasətin qeydinə qalan dövlətlər udmurlarmı?

Sosial bazar iqtisadiyyatı sabit konsepsiya deyil ki, iqtisadi siyasət bütün xırdalıqları ilə onu təsvir etsin və bütün dövrlər üçün möhkəm konsepsiyaya yerləşsin. O, daha çox dinamik xarakter daşıyır və dövlətin iqtisadi siyasətdə hansı əsas prinsiplərə uyğun hərəkət etməsini təsvir edir. Qloballaşma bazar iqtisadiyyatının oyun qaydalarında dəyişildiyi kimi bu əsas prinsiplər də həmçinin az da olsa öz etibarlılığını itirdi. Uzun müddətli olaraq, sosial münaqişələri davamlı tənzimləyən və iqtisadi çağırışlara dərhal və lap yaxşı cavab verən xalq təsərrüfatı qlobal rəqabətdə tətbiq ediləcək. Qısa müddətli isə başqa cür ola bilərdi, ona görə də sosial bazar iqtisadiyyatının əsas prinsiplərinə uyğun olaraq, dünyada tanınan bazar iqtisadiyyatı siyasəti şübhəsiz ki, ən yaxşı alternativ olardı.

## Sosial bazar iqtisadiyyatı konsepsiyası başqa ölkələrə necə ötürülə bilər?

Sosial bazar iqtisadiyyatı konsepsiyasının başqa ölkələrə necə ötürülməsi ancaq uzlaşma vasitəsilə mümkündür. Liberalizm düzəni humanizm və xristian sosial elmi üzərində qurulub və sözügedən həmin tərəfdaş ölkənin idealları və insan obrazı bu ilkin şərtlərə nə qədər çox müvafiqdirsə, o qədər asanlıqla uyğunlaşma gedir. Prinsipcə, bu uyğunlaşma başqa mədəniyyətlərdə də mümkündür.

Burada vacib olan budur ki, cəmiyyətin həmin tarixi anı, dəyərləri və məqsədləri nəzərə alınsın. Bu zaman sosial bazar iqtisadiyyatının nəzəri konsepsiyası kompas kimi özünün əsas prinsipləri, qurucu faktorları və tənzimləyici prinsipləri ilə düzən siyasətinin qurulmasına xidmət edə bilər. O yerdə uyğunlaşma imkanı məhdudlaşa bilər ki, orada ictimai dəyər anlayışları sosial bazar iqtisadiyyatının əsas prinsiplərinə, hər şeydən öncə isə yekdillik, həmrəylik və fərdi prinsip anlayışlarına zidd olsun.

Lakin əsas fikirlərə görə bütün inkişaf etmiş və inkişafda olan ölkələrdə sosial bazar iqtisadiyyatının tətbiqi üçün əsas olan ilkin şərtlər yerinə yetirilir. Bütün xalq təsərrüfatlarında inkişaf səviyyəsindən asılı olmayaraq, eyni iqtisadi vəzifə, insan ehtiyacına görə malların qıtlığı aradan qaldırılır və bazar prosesləri ilə tam etibarlılıq

mövcud olur. Bu zaman iqtisadi düzən artan inkişaf səviyyəsi üçün əhəmiyyətlidir, çünki artan iş bölünməsinə görə iqtisadi fəaliyyətin koordinasiyası həmişə daha çətin olur.

## Sosial bazar iqtisadiyyatının tətbiq edilməsinə qarşı etirazlar nədir və onlara qarşı necə müqavimət göstərilə bilər?

***Hər şeydən əvvəl Afrikanın bir çox iqtisadiyyat sahəsində bazar şanslarını vaxtında anlayan və işlək resurs dəstəyi vasitəsilə risklərə qarşı yeni texnologiyaları istifadə edən dinamik sahibkarlar üzərində çatışmazlıq hökm sürür. Nə qədər ki, belə sahibkarlar var, onlar qısa müddətli qazanc şansların istifadəsində daha çox maraqlıdırlar, nəinki inkişaf siyasəti baxımdan daha böyük uğurlar vəd edən uzun müddətli kapital qoyuluşunda (Bazar kapitalizmi ) .***

Bu etiraz rədd edilmir, lakin o, uzunmüddətli ticarəti mümkünsüz edən yaxud da ən azından onu ağırlaşdıran cəmiyyət düzəni ilə tez-tez əlaqəli olur. Buna görə də iqtisadi – siyasi inkişaf strategiyası uzun müddətli stimullar və qıtlığı azaldıcı hərəkətlər etmək üçün istiqamətlənməlidir. Rəqabət düzənini yürütmək də elə bu stimulları yaratmağa xidmət edir.

***Bir çox az inkişaf etmiş xalq təsərrüfatlarında kifayət etməyən sərmayə təcrübəsi mövcuddur. Buna görə də mövcud sərmayə bazar iqtisadiyyatlı rəqabət düzəninin təməlindəki özünü idarə edən inkişaf prosesini əvəz etmək üçün kifayət etmir.***

Kapital azlığı təkcə inkişaf etmiş ölkələrdə yox, bütün xalq təsərrüfatlarında ciddi problemdir. Hər şeydən öncə daxili sərmayə qoyuluşu fəaliyyəti maliyyə bazarlarının qloballaşması fonunda öz əhəmiyyətini itirdi. Başlıca problem bir çox inkişaf etmiş ölkələrdən kapitalı xaricə axıdan və daxilə gələn kapital axınına əngəl olan zəif hüquqi təhlükəsizlik və aşağı siyasi sabitlikdədir.

***Az inkişaf etmiş xalq təsərrüfatlarında anomal qiymət və gəlir reaksiyaları var: istehsalçılar bazar qaydalarına uyğun davranmır və qiymət, habelə gəlir artımında istehsalı yaymır.***

Bazar qaydalarına uyğun olmayan davranış empirik olaraq, az, regional və etnik cəhətdən məhdud olan qruplaşmalar üçün keçərlidir. Bir qayda olaraq, bu cür davranışlara qida

iqtisadiyyatının astanasında olan cəmiyyətlərdə rast gəlinir. Etniklərin davranış hallarına nisbətən bu problemin əsası daha çox bazarları sənaye ölkələrindən olan məhsullarla dolduran və bununla bazar iqtisadiyyatına uyğun davranan aktorları davamlı inkişafa görə məhv edən yanlış anlaşılmış inkişaf siyasətindədir.

***Bir çox az inkişaf etmiş xalq təsərrüfatlarında düzən siyasətli və institusional darboğazlar mövcuddur. Çox dəfə dövlətlər kifayət qədər güclü olmur və onlar sosial bazar iqtisadiyyatında işlə yüklənirlər.***

Həmçinin bu etiraz da qətiyyən rədd edilmir. Sosial bazar iqtisadiyyatı güclü dövlət tələb edir və o, demokratik əsaslar üzərində qurulur. Hər şeydən qabaq dövlətə olan tələblər xalq təsərrüfatının inkişafı ilə artır. Düzən siyasətli və institusional darboğazlı dövlətlərdə söhbət nəhəng dövlət bürokratiyası yaratmaqdan getməyəcək, əksinə ilk öncə sosial bazar iqtisadiyyatının qurucu faktorları konstitusiyaya və qanuna salınacaqdır.

***Yetərli olmayan bilgilər və / yaxud ideoloji çəkinmələr ucbatından bir çox ölkələrdə sosial bazar iqtisadiyyatını yürütmək üçün az iradə mövcuddur.***

Bu arqument təkcə az inkişaf etmiş xalq təsərrüfatlarına deyil, dinamik inkişaf prosesində gizlənən inkişaf etməkdə olan ölkələrə də şamil edilir. Bu tip ölkələrdə bilgiləri çatdırmaq və mövhumatı aradan qaldırmaq KAF-ın vəzifəsi olmalıdır. Qloballaşmanın bu dövründə sosial bazar iqtisadiyyatının əsas ideyası, bazarlarda azadlıq prinsipi sosial tarazlıq siyasəti ilə nəinki az zəruri, hətta daim zəruri olaraq birləşdirilir. Buna görə də ideoloji çəkinmələr ona gətirib çıxarmamalıdır ki, bu mövzu ilə məşğul olunmasın, əksinə manivela tətbiq edilməlidir. Əgər sosial bazar iqtisadiyyatı başqa cür formalaşmış olsaydı, şübhə duyula bilərdi ki, bu da konsepsiyanın məzmunu ilə məşğuldur.